# Sənətkarın Talehsiz taleyi

## Şərqin ilk opera yazan qadın bəstəkarı Şəfiqə Axundova ictimai həyatda xoşbəxt olsa da, ailə həyatında xoşbəxt ola bilmədi

**Çöhrəsində əsl Azərbaycan xanımlarına məxsus təbəssüm, nur və gözəllik olan Şəfiqə xanım Axundova Şərqdə ilk opera yazan azərbaycanlı xanımdır. 1924-cü ildə Şəkidə anadan olan Şəfiqə xanım Axundova 1943-1944-cü illərdə Asəf Zeynallı adına Bakı musiqi məktəbinə daxil olmuş və orada dahi Üzeyir Hacıbəyovdan dərs almışdır. Musiqiyə olan həvəsi sonradan onu Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə gətirib çıxarır.**

Şəfiqə xanım Axundova mənim musiqi tarixi müəllimim olub, mən gənclik illərimdən onu sevib, həmişə ona hörmət bəsləmişəm. Elə bu məhəbbətim də məni onun haqqında bir neçə kəlmə yazmağa sövq etdi.

O, 1972-ci ildə "Gəlin qayası" adlı ilk operası ilə Şərqdə bir günəş alovlandırdı ki, o günəşin şəfəqləri çox uzaq ölkələrə yayıldı. Şərqin ilk opera yazan qadını kimi adı tarixə düşən Şəfiqə Axundova bir çox tamaşalara musiqilər, operettalar, silsilə süitalar yazmışdır. Başdan ayağa qədər musiqiyə köklənmiş Şəfiqə xanım 300-dən artıq mahnı yazıbdır ki, bu mahnılar dillər əzbərinə çevrilərək, zaman-zaman xalqın qəlbini fəth edib. Simaca gözəl olan bu xanım qəlbən də gözəl idi. Şəfiqə xanım Azərbaycan qadınlarına yaraşan təmkini, xanım-xatınlığı, sakit danışığı, mülayim rəftarı, mədəni davranışı və xoş təbəssümü ilə bir çoxlarından seçilirdi. Nota köçürdüyü həzin, lirik musiqiləri sanki onun iç dünyasından, keçirdiyi ağrı-acılarından xəbər verirdi. Ailə taleyi uğursuz olan Şəfiqə xanım yeganə övladının adını sanki ona görə Taleh qoymuşdu ki, bəlkə tale onun üzünə gülsün. Amma nə yazıq ki, bəzən həyatda elə hadisələr baş verir ki, insanın gözləmədiyi halda taleyi dəyişilir.



Şəfiqə Axundova mahnı bəstələyərkən şairlərin elə şeirlərini seçirdi ki, sanki o sözlər onun öz həyatına həsr olunmuşdu. Ömür-gün yoldaşı ilə yollarını "Ya sənət, ya ailə" söhbəti üzündən ayıran Şəfiqə xanım sənəti daha yüksək tutdu. Bəlkə də bu, bir gənclik şıltaqlığı idi. Lakin artıq o, bu taleyi yaşamalı oldu.

Şəfiqə xanım Axundovanın Nəbi Xəzridən "Çinar və mən", Bəxtiyar Vahabzadədən "Nədən oldu?", Xurşudbanu Natəvandan "Neyçün gəlməz?", Məsum Əliyevdən "Gözlərimin işığı sənsən" və s. bu qəbildən olan mahnıları xalq tərəfindən sevilən mahnılardandır. Ziyalı ailədə dünyaya göz açan Şəfiqə xanımın böyüdüyü ailə böyük olsa da, o, səs-küydən, dava-dalaşdan uzaq, mehribanlığı sevən biri idi. Hətta müsahibələrinin birində "Mehriban olaq" adlı mahnısının bir təsadüf nəticəsində yarandığını, mahnını qonşularının bir-biri ilə olan soyuq münasibətinə həsr edərək yazdığını qeyd etmişdi.

Şəfiqə xanım Axundovanın mahnıları az zaman içərisində dillər əzbərinə çevrilirdi. "Hardasan sevgilim gəl", "Sevgi ölmür", "Gəl, ey səhər", "Çinar və mən", "Tapmayacaqsan məni" və s. mahnıları Azərbaycanın dəyərli sənətkarlarından S.Qədimova, Ş.Ələkbərova, R.Muradova, Z.Xanlarova, E.Rəhimova, Gülyaz və Gülyanaq Məmmədova bacıları, N.Dostəliyeva və digər müğənnilər tərəfindən ifa edilibdir. Bu mahnılar bu gün təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da eynilə sevilir, ifa olunur. Türkiyənin məşhur müğənnilərindən İbrahim Tatlısəs, Müslüm Gursəs, Zara və başqaları məhz Şəfiqə xanımın mahnılarını ifa edirdilər. İ.Tatlısəsin illərlə oxuduğu və şöhrət qazandığı "Nədən oldu" mahnısı Şəfiqə xanım Axundovanın yazdığı ən gözəl və müğənnilərə uğur gətirən musiqi əsəridir.

Ömrünün 70 ildən bir qədər də çoxunu bəstəkarlığa həsr edən Şəfiqə xanım Azərbaycan musiqisinə Taleh kimi bir övlad da bəxş etmişdir. Gözəl piano ifaçısı olan mərhum Taleh Hacıyev anasının yaradıcılığından bəhrələnərək, bir neçə mahnı yazmışdır. Bir çox müğənnilərin repertuarına daxil olan "Belə qəmli dayanma" mahnısı Talehə aid olan ən gözəl mahnılardandır. İstedadlı pianoçu Taleh sanki anasının davamçısı idi. Amma nə yazıq ki, insan həyatda bəzən gözlənilməz hadisələri yaşamalı olur. Şəfiqə xanım bu gözlənilməz hadisələrin ən kədərli gününü ahıl yaşlarında yaşadı. Yeganə oğlu Talehin ölümü ilə barışmayan bu xanım özünü nə qədər iradəli, mətin saxlamağa çalışsa da, ana qəlbinin çəkdikləri onu sarsıtdı. Xəstəxanada vəfat edən oğlunun ölümünü ondan düz 40 gün gizlətsələr də, nəhayət, söyləməli oldular. O dəhşətli faciədən sonra Şəfiqə xanım yaradıcılıqla məşğul ola bilmədi. Hər dəfə bir bəhanə gətirdi. Çünki hər zaman yaradıcılığında yanında olan oğlu indi yox idi. O səssizlikdən, Talehsizlikdən onun zərif ana qəlbi sızıldayırdı. Bir dəfə telekanallardan birində jurnalistin ona verdiyi sual məni çox təsirləndirdi. Jurnalistin: "Şəfiqə xanım, necəsiniz?"-sualına: "Sizcə, oğlu ölən ana necə olar?-deyə verdiyi cavab bir ana olaraq məni də çox kövrəltdi, hətta göz yaşımı saxlaya bilmədim. Amma Şəfiqə xanım ağlamadı, özünü məğrur tutmağa çalışsa da, daxilən çəkdiyi əzab nurlu çöhrəsinə bir pərişanlıq gətirdi. Talehsiz günlərini yaşayan bu talesiz qadın ictimai həyatda xoşbəxt olsa da, ailə həyatında xoşbəxt ola bilmədi. Yeganə övladı olan Talehindən bir nişanəsi belə qalmadı. Ana üçün həyatda bundan ağır dərd, kədər ola bilməz.

Şəfiqə xanım Axundova dövlət tərəfindən hər zaman layiq olduğu qiymətini, mükafatlarını alıbdır. 1998-ci ildə Xalq artisti fəxri adına, 2004-cü ildə "Şöhrət" ordeninə layiq görülən xanım təkcə övlad payından mükafatını doyunca dada bilmədi. Azərbaycan opera sənətinin dahi qadın bəstəkarı, dünyaya Şərqin ilk opera yazarı kimi səs salan Şəfiqə xanım Axundova 2013-cü ilin 26 iyul tarixində ciyərparası, yeganə övladı Talehə qovuşmaq üçün gözlərini əbədi olaraq həyata yumdu, talesiz qadın Talehinə qovuşmağa getdi.

**Pərixanım Mikayılqızı**
**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin şöbə müdiri**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***